## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyinin**
**____ nömrəli ____________2017-ci il**
**tarixli əmri ilə təsdiq edilmişdir.**

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 060309–Estrada sənəti (sahələr üzrə)**

**BAKI – 2017**

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **060309 – Estrada sənəti** (sahələr üzrə) ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na, «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**1.2.** İxtisas üzrə Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilatı-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

**1.3.** Strukturda istifadə olunan işarələr:
**İTP–** ixtisas üzrə Tədris Proqramı
**ÜK –**ümummədəni kompetensiyalar
**PK–** peşə kompetensiyaları

## 2. 060309 – Estrada sənətinin (sahələr üzrə) xarakteristikası

**2.1. 060309 – Estrada sənətinin (sahələr üzrə) xarakteristikası**
İTP-nin mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060309 – Estrada sənəti (sahələr üzrə)**<br><br>**İxtisaslaşmalar:**<br><br>- Populyar musiqi və caz ifaçılığı (vokal)<br>- Caz ifaçılığı (alətlər üzrə) | Magistr | 1,5 il | 90 |

## 3. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

**3.1. Magistrin ixtisas xarakteristikası.**
Magistr ifaçılıq sahəsində yüksək peşəkarlığa malik olmalı, vokal ifaçılıq sahəsinin mədəniyyətinə yiyələnməli, peşə hazırlığı tələb edən yaradıcılıq işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalı, peşəkar fəaliyyəti çərçivəsində meydana çıxan mürəkkəb məsələləri həll etməyi bacarmalıdır.

**3.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

**3.2.1.** Məzun aşağıdakı ümummədəni kompetensiyalara **(ÜK)** yiyələnməlidir:
- kollektivdə işləmək qabiliyyəti (**ÜK-1);**
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq qabiliyyəti **(ÜK-2);**
- fəal sosial mobillik **(ÜK-3);**
- beynəlxalq arenada işləmək qabiliyyəti **(ÜK-4);**
- hüquqi biliklər və etik normalara malik olmaq **(ÜK-5);**
- yeni ideyalar irəli sürmək qabiliyyəti **(ÜK-6);**
- müstəqil işləmək **(ÜK-7);**
- yaradıcılıq, pedaqoji işlərin təşkilində, yaradıcı kollektivin idarə olunmasında bacarıq və vərdişlərə malik olmaq **(ÜK-8);**
- təşəbbüskarlıq və liderlik **(ÜK-9);**
- işi təşkil etmək və planlaşdırmaq qabiliyyətinə malik olmaq (**ÜK-10);**

**3.2.2.** Məzun aşağıdakı peşə kompetensiyalarına **(PK)** yiyələnməlidir:
- populyar musiqi və caz ifaçılığında (vokal, alətlər üzrə) yüksək peşəkarlığa **(PK-1);**
- populyar musiqi və caz ifaçılığının (vokal), caz ifaçılığının (alətlər üzrə) bütün imkanlarından istifadə etmək bacarığına **(PK-2);**
- mənimsənilmiş vərdişləri konsert və pedaqoji fəaliyyətdə tətbiq etmək bacarığına **(PK-3);**

- populyar musiqi və caz ifaçılıq sənətinə (vokal), caz ifaçılığının (alətlər üzrə) aid elmi-nəzəri ədəbiyyatdan istifadə etmək bacarığına **(PK-4);**
- solo ifaçısı, ansambl (vokal), caz ifaçılığının (alətlər üzrə) qismində çıxış etmək səriştəsinə **(PK-5);**
- populyar musiqi və caz ifaçılığının (vokal), caz ifaçılığının (alətlər üzrə) aktual problemləri barədə geniş məlumata **(PK-6);**
- konsertmeyster, dirijor və orkestr ilə peşəkar iş qabiliyyətinə **(PK-7);**
- populyar musiqi və caz ifaçılıq sənətinə (vokal), caz ifaçılığına (alətlər üzrə) aid bilik və səriştədən təcrübədə istifadə etməyə **(PK-8);**

***İstehsalat-pedaqoji sahəsi üzrə:***

- fənnin tədrisində kompüter texnologiyasından istifadəyə (**PK-9**);
- fənlə bağlı termin və ifadələrin tətbiqi bacarığına (**PK-10**);
- müasir təlim texnologiyalarını tətbiq etmək bacarığına (**PK-11**);

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***

- ümumi və fərdi iş formalarını təşkil etməyə (**PK-12**);
- fənnin tədrisi ilə bağlı bilikləri təqdim etmək və onları iş şəraitinə adaptasiya etməyə (**PK-13**);
- qrupların yaradıcılıq işlərinə rəhbərlik etməyə (**PK-14**);
- ixtisas biliklərini düzgün və yığcam ifadə etməyə (**PK-15**);

***Pedaqoji sahə üzrə:***

- ümumtəhsil, texniki-peşə, orta ixtisas təhsili müəssisələrində və ali təhsilin bakalavriat səviyyəsində ixtisas fənlərinin tədrisini aparmağa (**PK-16**);
- elektron kitabxanalardan, referativ jurnallardan, internetdən məlumatlar əldə etməyə (**PK-17**)

## 4. Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

**4.1. Peşə fəaliyyətinin xarakteristikası.**

Magistr İxtisası üzrə mükəmməl nəzəri biliyə, yaradıcılıq prosesi ilə bağlı təcrübi bacarıq və səriştəyə malik olmalı, populyar musiqi və caz sənəti və bu ixtisasa yaxın fənlər üzrə pedaqoji fəaliyyətə hazır olmalıdır. Davamlı təlim və peşəkar inkişafla bağlı təhsil və təlim üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilməlidir**.**

**4.1.1. 060309 – Estrada sənəti (sahələr üzrə)** ixtisası üzrə magistrlərin peşə fəaliyyətinin əsas istiqamətləri:

- yaradıcılıq - ifa sahəsi üzrə;
- pedaqoji;
- təşkilati-inzibatçılıq və s

**4.1.2. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər:**

**Yaradıcılıq–ifa istiqaməti üzrə:**

- bədii və texniki vokal və alət ifaçılığı vərdişlərini solo və orkestr ilə yüksək səviyyədə hazırlamaq;
- populyar musiqi və caz musiqisinin (vokal, alətlər üzrə) müxtəlif janrlarına, üslub və təmayüllərinə aid bəstəkar əsərlərindən ibarət geniş və rəngarəng ifaçılıq repertuarı hazırlamaq;
- musiqi ifaçılarının müsabiqə və festivallarında iştirak etmək.

**Pedaqoji istiqamət üzrə:**

- fərdi və qrup dərsləri aparmaq;
- pedaqoji təcrübəyə rəhbərlik etmək;
- müasir proqram təminatından istifadə etmək;
- ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etmək;
- ixtisasın tədrisinə dair informasiyaların toplanması və emalında İKT-dən istifadə etmək və s.

**Təşkilati-inzibatçılıq istiqaməti üzrə:**

- yaradıcılıq kollektivlərinin təşkili və onunla iş birliyi;
- müəlliflərlə iş birliyinə (bəstəkar, aranjimançı, səhnə tərtibatçısı, libretto müəllifi, şair);
- yaradıcılıq layihələrini hazırlama və reallaşdırma bacarığına (konsertlər, festivallar, müsabiqələr, ustad dərsləri, yubiley tədbirləri);

**4.2.** İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq, vərdişlər baxımından) | Fənn bölümləri üzrə kreditlərin sayı | Fənnin kodu və adı | Fənn üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensi-yaların kodları |
|---|---|---|---|---|---|
| **Təhsil hissəsi** | | | | | |
| **MHF-B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr:<br>**bilməlidir:**<br>- ixtisasa aid pedaqoji ədəbiyyatı öyrənməyi,<br>- Azərbaycanda ali təhsil sistemini, təlim prosesi və təhsilin məzmununu, yaradıcılıq (müəllim və tələbə) işinin metodikasını;<br>- psixologiyanın metodlarını, psixologiyanın əsas istiqamətlərini, qarşılıqlı münasibətlərin psixologiyasını, tələbə psixologiyasını və s.<br>**bacarmalıdır:**<br>- ixtisasa aid elmi ədəbiyyatdan istifadə etməyi, annotasiya, referat, tezis, tərcümeyi-hal və s. yazmağı;<br>- məşğələləri planlaşdırmağı və aparmağı, yaradıcılıq işini yerinə yetirməyi;<br>- hər bir tələbəyə psixoloji baxımdan fərdi qaydada yanaşmağı.<br>**yiyələnməlidir:**<br>- ali təhsil müəssisəsində tədris işləri aparmağa, tələbələrə psixoloji yanaşma keyfiyyətlərinə və s. | **10** | **MHF–B01**<br>*Xarici dil*<br><br>**MHF–B02**<br>*Ali məktəb Pedaqogikası*<br><br>**MHF–B03**<br>*Yaradıcılıq psixologiyası*<br><br>**MHF – B04**<br>*Seçmə fənn* | **4**<br><br>**2**<br><br>**2**<br><br>**2** | **ÜK-1**<br>**ÜK-2**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-5**<br>**ÜK-6**<br>**ÜK-7**<br>**ÜK-8**<br>**ÜK-9**<br>**ÜK-10** |
| **MİF-B00** | **İxtisas (ixtisaslaşma) fənlər bölümü**<br>Bu fənlərin öyrənilməsi nəticəsində təhsil alan<br>**bilməlidir:**<br>**<u>Populyar musiqi və caz ifaçılığı (vokal)</u>**<br>- populyar musiqi və caz ifaçılığının musiqinin ifaçılıq texnikasının əsaslarını, ifa prinsipini, müraciət edilən hər bir bəstəkara məxsus dəst-xətti, caz musiqi ifaçılığı texnikasına məxsus spesifik xüsusiyyətlərinə, caz musiqi janrlarında yaranmış əsərlərin üslub prinsiplərinə yiyələnməlidir;<br>– ümumdünya populyar musiqi və caz sənətinin yaranmasını, inkişaf və çağdaş dövrdəki vəziyyəti, onun görkəmli nümayəndələri, ifaçı və | **50** | **MİF-B01**<br>Populyar musiqi və caz ifaçılığının müasir istiqamətləri<br><br>**MİF-B02**<br>İxtisas<br><br>**MİF – B03**<br>*Ali məktəb tərəfindən müəyyən edilən fənlər* | **4**<br><br>**16**<br><br>**26** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11**<br>**PK-12**<br>**PK-13**<br>**PK-14**<br>**PK-15** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | bəstəkarlarının fəaliyyətini öyrənməlidir;<br><br>– caz sənəti və onun müxtəlif janrlarını, tərz, cərəyan və üslublarını bilməli, caz sənətinin təməlini qoyanlar, inkişafında rolu olan nümayəndələr haqqında bilgiyə malik olmalıdır;<br><br>– cazın kompozisiya quruluşu, improvizə və inkişaf prinsiplərini, caz improvizasiyasının müxtəlif üslub texnikasına bələd olmalıdır;<br><br>– caz ifaçılıq texnikasının əsaslarını, janr və üslubu müxtəlif olan f-no musiqi nümunələrini, bu əsərlərin ifa prinsipini, müraciət edilən hər bir bəstəkarın üslubunu, interpretasiya xüsusiyyətlərini bilməlidir;<br><br>- Azərbaycan xalq musiqisinin əsaslarını, məqam və muğamın quruluş formalarını, lad nəzəriyyəsi və məqam sistemini, səs sistemi, temperasiya və xüsusiyyətlərini bilməlidir;<br><br>- caz musiqi əsərlərinin kompozisiyasında tonallıq planı, modulyasiya, kadensiya, məqam vasitələrini, əsərin bədii mahiyyətini təcəssüm etdirməyi;<br>- caz musiqisinin nəzəri və praktiki məsələlərini (janr, üslub, məzmun, forma, musiqi dili) əlaqələndirməyi, müxtəlif dövr bəstəkarları və üslublarını nəzəri təhlil etməyi;<br><br>**Caz ifaçılığı (alətlər üzrə)**<br>- caz ifaçısı musiqinin ifaçılıq texnikasının əsaslarını, ifa prinsipini, müraciət edilən hər bir bəstəkara məxsus dəst-xətti, caz musiqi ifaçılığı texnikasına məxsus spesifik xüsusiyyətlərinə, caz musiqi janrlarında yaranmış əsərlərin üslub prinsiplərinə yiyələnməlidir;<br><br>– ümumdünya caz sənətinin yaranmasını, inkişaf və çağdaş dövrdəki vəziyyəti, onun görkəmli nümayəndələri, ifaçı və bəstəkarlarının fəaliyyətini öyrənməlidir;<br><br>– caz sənəti və onun müxtəlif janrlarını, tərz, cərəyan və üslublarını bilməli, caz sənətinin təməlini qoyanlar, inkişafında rolu olan nümayəndələr haqqında bilgiyə malik olmalıdır; | | **MİF – B04**<br><br>Seçmə fənn<br><br>(fənlər)* | **4** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | – cazın kompozisiya quruluşu, improvizə və inkişaf prinsiplərini, caz improvizasiyasının müxtəlif üslub texnikasına bələd olmalıdır;<br><br>– caz ifaçılıq texnikasının əsaslarını, janr və üslubu müxtəlif olan f-no musiqi nümunələrini, bu əsərlərin ifa prinsipini, müraciət edilən hər bir bəstəkarın üslubunu, interpretasiya xüsusiyyətlərini bilməlidir;<br><br>- Azərbaycan xalq musiqisinin əsaslarını, məqam və muğamın quruluş formalarını, lad nəzəriyyəsi və məqam sistemini, səs sistemi, temperasiya və xüsusiyyətlərini bilməlidir;<br><br>- caz musiqi əsərlərinin kompozisiyasında tonallıq planı, modulyasiya, kadensiya, məqam vasitələrini, əsərin bədii mahiyyətini təcəssüm etdirməyi;<br>- caz musiqisinin nəzəri və praktiki məsələlərini (janr, üslub, məzmun, forma, musiqi dili) əlaqələndirməyi, müxtəlif dövr bəstəkarları və üslublarını nəzəri təhlil etməyi;<br>**bacarmalıdır:**<br><br>**<u>Populyar musiqi və caz ifaçılığı (vokal)</u>**<br><br>**-** estrada-caz ansamblında vokalist qismində çıxış etməyi;<br>- iri və xırda janrlarda yazılmış musiqi əsərlərini ifaçılıq mövqeyindən təhlil etməyi;<br>- dünya musiqisi nümunələri və Azərbaycan bəstəkarlarının populyar musiqi və caz əsərlərinin təfsirini verərkən əsərin üslub xüsusiyyətlərini, bədii məzmunu və müəllif qayəsini dinləyiciyə çatdırmağı;<br>- Avropa və Azərbaycan musiqisinə aid olan populyar musiqi və caz əsərlərinin bədii xüsusiyyətlərini təhlil etməyi;<br>- populyar musiqi və caz əsərlərini asanlıqla üzdən oxumağı;<br><br>**<u>Caz ifaçılığı (alətlər üzrə)</u>**<br>**-** estrada-caz ansamblında caz alətlərinin ifaçısı qismində çıxış etməyi;<br>- iri və xırda janrlarda yazılmış musiqi əsərlərini ifaçılıq mövqeyindən təhlil etməyi;<br>- dünya musiqisi nümunələri və Azərbaycan bəstəkarlarının caz | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | əsərlərinin təfsirini verərkən əsərin üslub xüsusiyyətlərini, bədii məzmunu və müəllif qayəsini dinləyiciyə çatdırmağı;<br>- Avropa və Azərbaycan musiqisinə aid olan caz əsərlərinin bədii xüsusiyyətlərini təhlil etməyi;<br>- caz əsərlərini asanlıqla üzdən oxumağı;<br><br>**yiyələnməlidir:**<br>**<u>Populyar musiqi və caz ifaçılığı (vokal)</u>**<br><br>- populyar musiqi və caz ifaçısı üçün zəruri olan professional keyfiyyətlərə;<br>- populyar musiqi və caz ifaçılığının tarixi, nəzəriyyəsi və metodikasına dair dərin biliklərə;<br>- bəstəkar yaradıcılığının janrlar və formaları, o cümlədən, populyar musiqi və caz musiqsinin janrları barədə dərin biliklərə;<br>- solo ifaçısı kimi fərdi yaradıcılıq işini planlaşdırmaq, fərdi repertuar seçimi etmək səriştəsinə;<br>- ansambl ifaçısı kimi repertuar ifasında iştirak etmək səriştəsinə<br>**<u>Caz ifaçılığı (alətlər üzrə)</u>**<br><br>- caz ifaçısı üçün zəruri olan professional keyfiyyətlərə;<br>- caz ifaçılığının tarixi, nəzəriyyəsi və metodikasına dair dərin biliklərə;<br>- bəstəkar yaradıcılığının janrlar və formaları, o cümlədən, caz musiqsinin janrları barədə dərin biliklərə;<br>- solo ifaçı kimi fərdi yaradıcılıq işini planlaşdırmaq, fərdi repertuar seçimi etmək səriştəsinə;<br>- ansambl ifaçısı kimi repertuar ifasında iştirak etmək səriştəsinə | | | | |
| **MEY-B00** | **Yaradıcılıq işi bölümü:**<br>Magistr aşağıdakıları **bilməli və bacarmalıdır:**<br>- konsert ifaçısı kimi çıxışı planlaşdırmağı;<br>- populyar musiqi və caz musiqisinin (vokal) və caz ifaçılığının (alətlər üzrə) janr və üslub istiqamətlərinə əsaslanaraq repertuar seçimini;<br>- populyar musiqi və caz ifaçısı (vokal) və caz ifaçısı (alətlər üzrə) qismində çıxış etməyi;<br>- məktəbəqədər və məktəb səviyyəsində uşaqlarla çalışmağı;<br>- hazırladığı magistr buraxılış proqramı ilə açıq konsertdə çıxış etməyi və s. | **30** | Yaradıcılıq təcrübəsi<br><br>Pedoqoji təcrübə<br><br>Yekun yaradıcılıq işinin təqdimatı | **6**<br><br>**6**<br><br>**18** | **ÜK-1**<br>**ÜK-7**<br>**ÜK-8**<br>**ÜK-9**<br>**ÜK-10**<br>**PK-3**<br>**PK-4**<br>**PK-7**<br>**PK-8**<br>**ÜK-11** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **Kreditlərin ümumi sayı** | **90** | | **90** | |

**Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**4.3.** İxtisası üzrə magistr təhsil proqramının yerinə yetirilməsi müddəti:
ümumi həftələrin sayı – 72
o cümlədən:

- nəzəri təlim – 30 həftə
- təcrübələr (yaradıcılıq və elmi-pedaqoji) – 8 həftə
- imtahan sessiyaları – 10 həftə
- magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi – 12 həftə
- tətillər – 12 həftə

## 5. Maddi-texniki, tədris bazası və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsinin **060309 – Estrada sənəti** (sahələr üzrə) ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və yaradıcılıq işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, konsert zalları və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsil alanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**5.2.** Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi, elmi adı və ya fəxri adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər cəlb oluna bilər.

**5.3.** Magistrlik yaradıcılıq işinə rəhbərlik, bir qayda olaraq, həmin təhsil müəssisəsində çalışan professor-müəllim heyətinin elmi adı, elmi dərəcəsi və ya fəxri adı olan nümayəndələri və ya həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Tədris prosesinin forma və metodları

**6.1.** Magistrantın təlimi və pedaqoji hazırlığı fərdi dərslər, mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formalarda həyata keçirilir.

**6.2.** Magistr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

**6.3.** **060309 – Estrada sənəti** (sahələr üzrə) ixtisası üzrə magistr hazırlığında pedaqoji və istehsalat təcrübələri nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq müvafiq təşkilatlarda, yaxud ali məktəblərin kafedra və laboratoriyalarında, bunların nəzdindəki məktəblər və yaradıcılıq studiyalarında keçirilə bilər.

## 7. Yekun Dövlət Attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

**7.1.** Yekun Dövlət Attestasiyası magistirlik (yaradıcılıq-ifa) işinin müdafiəsindən (təqdimatından) ibarətdir (ixtisasdan asılı olaraq buraxılış imtahanı da ola bilər). Yaradıcılıq - ifa işinin məzmununa, həcminə, strukturuna qoyulan tələblər və onun müdafiəsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq olunmuş «Magistrlik dissertasiyalarının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə» ilə müəyyənləşdirilir.

**7.2.** İxtisaslaşdırılmış Şuraların sədrləri Təhsil Nazirliyi, tərkibi ali təhsil müəssisəsi tərəfindən təsdiq olunur.

**7.3.** Yekun Dövlət Attestasiyası nəticəsində məzunlara magistr ali ixtisas dərəcəsi və dövlət nümunəli diplom verilir.

**7.4.** İmtahanlar və Yekun Dövlət Attestasiyası zamanı tələbələrin biliyinin qiymətləndirilməsi çoxballı sistemlə həyata keçirilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin Aparat rəhbərinin müavini,
Elm, ali və orta ixtisas təhsil
şöbəsinin müdiri

______________________Yaqub Piriyev

"_____" ______________ 2017-ci il

Mədəniyyət və İncəsənət ixtisasları
qrupu üzrə Dövlət Təhsil Proqramlarını
hazırlayan işçi qrupun sədri

________________Validə Məmmədova

"_____" ______________ 2017-ci il

Azərbaycan Respublikası Təhsil
Nazirliyinin Elmi Metodiki-Şurasının
"İncəsənət" bölməsinin sədri

___________________ Zemfira Qafarova

"_____" ______________ 2017-ci il